# Elektron dövlət mühitində e-sosial siyasət məsələləri

Səyyar Abdullayev[1], Südabə Abasova[2]
[1,2]İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
[1,2]*depart5@iit.ab.az*

***Xülasə* — Məqalədə elektron dövlət mühitində sosial siyasət məsələləri araşdırılır. Bu siyasətin vətəndaşlar üçün yaratdığı imkanlar şərh olunur. Azərbaycanda elektron dövlət quruculuğu çərçivəsində bu istiqamətdə həyata keçirilən tədbirlər, əldə edilən nəticələr analiz edilir.**

***Açar sözlər – elektron dövlət, "Asan" xidmət, sosial siyasət, elektron imza, elektron sənəd dövriyyəsi***

Azərbaycan Respublikasında aparılan uğurlu siyasət, həyata keçirilən islahatlar və irimiqyaslı layihələr sayəsində ictimai həyatın iqtisadi və sosial-siyasi sahələrində dinamik inkişafa nail olunmuşdur. Cəmiyyətin demokratikləşməsi və əhalinin rifahının yüksəlməsi ilə müşayiət olunan bu inkişaf respublikanın beynəlxalq nüfuzunu, müdafiə qüdrətini, iqtisadi potensialını artırmaqla Azərbaycan dövlətinin qloballaşan dünyanın bərabər hüquqlu subyekti kimi çıxış etməsinə və inkişaf etmiş ölkələr sırasına daxil olmasına möhkəm zəmin yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən düşünülmüş, gələcək inkişafa hesablanmış ardıcıl və məqsədyönlü sosial-iqtisadi siyasət digər sahələrdə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunda da öz bəhrəsini verməkdir. Son illər sektor üzrə uğurlu nəticələr əldə edilmiş, ölkə və region üçün böyük əhəmiyyət kəsb edən layihələr həyata keçirilmişdir. "Elektron hökumət"in formalaşdırılması ilə bağlı görülən işlər çərçivəsində "elektron imza"nın tətbiqi, "Elektron hökumət" portalının yaradılması, həmçinin "E-təhsil", "E-səhiyyə", "E-vergilər", "E-gömrük", "E-ədliyyə" və s. layihələrin reallaşması İKT sahəsində inkişafa təkan verən mühüm nailiyyətlərdirlər. Müasir mərhələdə Azərbaycanın davamlı və dayanıqlı inkişaf siyasətinin prioritet istiqamətlərindən elan olunan İKT sosial-iqtisadi sistemin bütün sahələrinə və insanların gündəlik fəaliyyətinə sürətlə nüfuz edərək, ictimai-iqtisadi münasibətlərin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Demokratik dəyərlərə əsaslanan yeni ictimai münasibətlər sisteminin formalaşması cəmiyyətin strukturunda mühüm dəyişikliyə səbəb olmuş, vətəndaşların ictimai-siyasi proseslərdə daha fəal rol oynamasına şərait yaratmışdır.

Bəşəriyyət İKT-nin imkanlarına əsaslanan yeni inkişaf mərhələsinə – İnformasiya cəmiyyətinin (İC) formalaşması dövrünə qədəm qoymuşdur. Dünyanın mənzərəsi dinamik olaraq dəyişir və nformasiya cəmiyyətini mobil rabitə, internet xidmətləri olmadan təsəvvür etmək mümkün deyil [1]. Bu cəmiyyətin əsas hədəflərindən biri isə elektron dövlətin (e–dövlət) yaradılmasıdır. Elektron dövlətin yaradılmasında əsas məqsəd İKT-nin imkanlarından maksimum istifadə etməklə dövlət müəssələrinin vətəndaşlara göstərdikləri xidmətin səviyyəsini yüksəltmək, məkan və zamandan asılı olmayaraq dövlət informasiya resurslarına girişi sadələşdirmək və cəmiyyətin bütün təbəqələrinin dövlət idarəçiliyində aktiv iştirakını təmin etməkdir. E-dövlət mühitində tətbiqi məsələlər sırasında (vətəndaşların dövlət informasiya bazalarına girişi, dövlət, vətəndaş və biznes sektoru arasındakı əksər standart tranzaksiyaların şəbəkədə mümkünlüyü) ən vacibi isə dövlət və hökumət yerli özünüidarəetmə orqanlarında sənəd dövriyyəsinin elektron formaya keçirilməsidir.

Mütəxəssislər e-dövlətə transformasiya prosesində aşağıdakı əsas məsələləri qeyd edirlər: ilkin veb-təmsilçilik (nazirliklərin və idarələrin fəaliyyət istiqamətləri haqqında kontentləri özündə əks etdirən veb-saytların yaradılması); hökumətlə vətəndaşlar və biznes sektoru arasında interaktiv qarşılıqlı əlaqənin təşkili (e-poçt vasitəsilə sual-cavab); tranzaksiyaların aparılması (sənədləri almaq, alqı-satqı əməliyyatlarını həyata keçirmək) və s.

E-dövlətin əsas qollarından biri olan e-hökumət mühitində hüquqi çərçivənin müəyyən edilməsi mühüm əhəmiyyət daşıyır. E-hökumətin inkişafı və tətbiqində meydana çıxan hüquqi məsələlərə hökumətlə əlaqələrin elektronlaşdırılmasını, dövlətin informasiya sisteminə girişin əldə olunmasını, e-mail və digər elektron sənədlərin arxivləşdirilməsini, e-ticarəti və s. aid etmək olar. [2].

Azərbaycan Respublikasının Prezidenti tərəfindən şəffaflıq və operativlik, korrupsiya ilə mübarizə, ictimai agahlıq və aşkarlıq, sosial məmnunluq kimi prinsiplər ölkəmizin sosial-iqtisadi inkişafının prioritetləri elan edilib. Aparılan sosial siyasətin mahiyyətini insan amilinin hər şeydən önə çəkilməsi, onun rifahının və maddi-mənəvi inkişafının yüksək təmin olunması, maddi kapitalın insan kapitalına çevrilməsi təşkil edir.

Eyni zamanda, informasiya cəmiyyətinin tələblərindən irəli gələn dövlət informasiya sistemlərinin inkişafına, informasiya təhlükəsizliyinin təmin edilməsinə, e-imza və elektron sənəd dövriyyəsinin tətbiqinə, elektron və poçt-maliyyə xidmətlərinin təşkilinə, yerli istehsalın və onun ixrac potensialının gücləndirilməsinə, ayrı-ayrı sahələr üzrə İKT-nin tətbiqinin genişləndirilməsinə, internetdən istifadə səviyyəsinin artırılmasına və İKT üzrə kadr hazırlığına diqqət yetirilməsi vacibdir.

Ölkəmizin iqtisadi potensialının daha da gücləndirilərək onun kompleks şəkildə səmərəli reallaşdırılması nəticəsində əmək haqları və pensiyaların, digər sosial müavinətlərin mütəmadi artırılması, yeni iş yerlərinin yaradılması və bunun daha çox qeyri-neft sektorunu əhatə etməsi vətəndaşların sosial müdafiəsinin daha da güclənməsinə səbəb olmuşdur. Yoxsulluğun səviyyəsi 50 faizdən 5 faizədək azaldılıb. İşsizliyin səviyyəsi də təqribən 5 faizə çatdırılıb. Özəl sektorun məşğulluqda payı 68 faizdən 74 faizədək artıb. Bu sistemin tətbiqi qeyri-leqal məşğulluqla mübarizədə öz töhfəsini verəcək: Bundan başqa, layihənin reallaşdırılması dövlət büdcəsinə daxilolmaların həcmini artırmağa, işçilərin

hüquqlarının qorunmasını daha yaxşı təmin etməyə imkan verəcək, icbari dövlət sosial sığortası üzrə yığımlar artacaq, bu sistemin elektron hökumət portalına inteqrasiyası isə ondan istifadəni asanlaşdıracaq. Pensiya və müavinətlərin ödənişi də avtomatlaşdırılmışdır. Hazırda pensiya ödənişi aparılan pensiyaçıların şəhərlərdə 100%-nin, kənd yerlərində 99,0%-nin, ümumilikdə isə 99,4%-nin pensiyasının plastik kartlarla ödənilməsi təmin olunmuşdur [3].

Azərbaycanın son illərdə sosial siyasət sahəsində əldə etdiyi zəngin təcrübə inkişaf yoluna yenicə qədəm qoymuş digər ölkələr üçün də model rolunu oynaya bilər. Ölkədə məqsədyönlü surətdə həyata keçirilən sosial infrastruktur layihələrinin qlobal böhran şəraitində belə dayandırılmaması hökumətin siyasətində insan amilinin, vətəndaşa layiqli xidmət məramının mühüm yer tutduğunu bir daha göstərir. Gizli məşğulluğun leqallaşdırılması Azərbaycanda aparılan sosial siyasətin prioritetlərindən biridir. Bundan sonra əmək münasibətləri əmək müqaviləsi bağlandığı andan deyil, elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranacaq. İşçilərin hüquqlarının qorunması həmişə dövlət strukturlarının diqqət mərkəzindədir və bu, ölkədə aparılan dövlət siyasətinin ən vacib məqsədlərindən biridir.

Dövlət Sosial Müdafiə Fondunun maddi-texniki bazası tamamilə yenidən qurulmuş, fondun bütün orqanlarında müasir standartlara cavab verən avtomatlaşdırılmış iş yerləri yaradılmışdır [4]. Sığorta olunanlar dövlət sosial sığorta sistemində avtomatlaşdırılmış qaydada uçota alınır. Məcburi dövlət sosial sığortası üzrə hesabatların və məcburi dövlət sosial sığorta haqqı üzrə sığorta olunanlar haqqında məlumatların elektron qaydada ötürülməsi və qəbulu həyata keçirilir. Sığorta edənlər də audit elektron qaydada aparılır, inzibati nəzarət ictimai nəzarətlə əvəzlənir: Sığorta onunalara münasibətdə fərdi hesablarında toplanmış sosial sığorta haqlarının məbləği barədə müxtəlif vasitələrlə (Dövlət Sosial Müdafiə Fondunun İnternet saytı, müştəri xidmətləri şəbəkəsi, rəsmi bildiriş və s.) məlumat almaq imkanına malik olur, nəticədə hər bir işləyən şəxs öz gələcək pensiya təminatı naminə sosial sığorta haqlarının tam və vaxtında ödənilməsinə nəzarət etmək imkanı əldə edir. Fondun saytında fəaliyyət göstərən elektron xidmətlər bölməsi vasitəsilə öz gələcək pensiyasının məbləğini elektron qaydada hesablamaq imkanına malikdir. Artıq pensiyaçılara münasibətdə isə vətəndaşın pensiya təyinatı üçün hər hansı sənəd təqdim etməsinə ehtiyac qalmır və yalnız ona pensiya təyin edilməsi üçün müvafiq müraciətini elektron qaydada (istədikdə poçt vasitəsilə) Fonda ünvanlayır: Yaşa görə pensiya üçün tələb olunan şəxsiyyət vəsiqəsi barədə məlumatlar Fondla Daxili İşlər Nazirliyi arasındakı elektron əlaqə ilə təmin olunur, sosial sığorta şəhadətnaməsi və digər sosial sığorta parametrləri barədə məlumatlar isə Fondun mərkəzi məlumat sistemində olur.

Əlilliyə görə pensiya üçün Fondla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasındakı elektron əlaqə ilə əlillik qrupunun verilməsi barədə müvafiq məlumatlar alınır, digər məlumatlar isə Fondun mərkəzi məlumat bazasından götürülür. Ailə başçısını itirməyə görə pensiya üçün Fondla Ədliyyə Nazirliyi arasındakı elektron əlaqə ilə vəfat etmiş şəxs barədə və ya onun ailə üzvləri barədə məlumat əldə edilir, digər müvafiq məlumatlar isə Fondun mərkəzi məlumat bazasından götürülür. Vətəndaşların elektron müraciətləri əsasında pensiya təyinatı avtomatlaşdırılmış qaydada vahid mərkəzdən aparılır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlarda çalışan işçilərin əmək və sosial hüquqlarının qorunmasını təmin edən mərkəzi icra orqanı olaraq bir sıra məqsədyönlü sosial həyata keçirir. Nazirlik Azərbaycan Respublikası prezidentinin 1992-ci il 10 dekabr tarixli Fərmanı ilə yaradılıb. Nazirlik işsizliyin səviyyəsinin azaldılmasına, əmək bazarında zəif rəqabətli əhali qruplarının, xüsusilə gənclərin, çoxuşaqlı qadınların, qaçqın və məcburi köçkünlərin, əlillərin, şəhid ailəsi üzvlərinin məşğulluğuna yönəldilmiş siyasəti həyata keçirmək, yeni iş yerlərinin yaradılmasına yönəldilmiş tədbirlər hazırlamaq, əmək ehtiyatlarını bazar şəraitinə uyğunlaşdırmaq məqsədilə peşə hazırlığı mexanizmini təkmilləşdirmək kimi vəzifələri icra edir. Əhalinin sosial təminat sistemi daha da təkmilləşdirilir, sosial xidmət göstərən dövlət müəssisələrinin maddi-texniki bazası gücləndirilir, onların növləri və şəbəkəsi genişləndirilir. Hal-hazırda elektron xidmətlə bağlı aşağıdakı xidmətləri həyata keçirir: Ünvanlı sosial yardım verilməsi üçün müraciətin və sənədlərin qəbulu, məşğulluqla bağlı, habelə peşə hazırlığı, əlavə təhsil və haqqı ödənilən ictimai işlərə cəlb olunmaq üçün müraciətin və sənədlərin qəbulu , işsizlik müavinətinin məbləğinin hesablanması kalkulyatoru, istehsalatda baş verən bədbəxt hadisə barədə aidiyyatı dövlət strukturuna məlumatların verilməsi, peşə seçimi ilə bağlı onlayn testləşdirmə, məşğulluq orqanları vasitəsi ilə iş axtarışı, işsizlik statusunun verilməsi və müavinətinin təyin edilməsi üçün müraciətin və sənədlərin qəbulu, sosial müavinətlərin və təqaüdlərin hesablanması üzrə sosial kalkulyator [5].

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) oktyabr ayı ərzində "Elektron hökumət" portalı üzərindən göstərilən elektron xidmətlərdən istifadə statistikasına əsasən ən çox müraciət olunan 5 dövlət qurumunu müəyyənləşdirib.

2014-cü ilin oktyabr ayında e-xidmətlərindən istifadə sayına görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) ilk yeri tutur. Nazirliyin 6 xidməti ən aktual xidmətlər sırasında olub. ƏƏSMN-in "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi", "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi" elektron xidmətlərinə ölkədə əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınmasına qoyulan tələblə əlaqədar olaraq maraq artıb, sözügedən xidmətlər ən aktual e-xidmətlər sırasına yüksəlib. Ümumilikdə, ƏƏSMN-in təqdim etdiyi 6 xidmətdən 302191 dəfə istifadə olunub. Elektron xidmətlərindən ən çox istifadə edilən 5 qurum sırasında ikinci mövqedə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) dayanır. RYTN-in xidmətlərindən 137019 dəfə istifadə qeydə alınıb. "Telefon nömrəsi üzrə axtarış", "Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi" və "Mobil cihazların IMEI kodunun yoxlanılması və qeydiyyata alınması" xidmətləri ən çox

istifadə olunanlar sırasında yer alır. Siyahıda 3-cü olan Dövlət Sosial Müdafiə Fondunun (DSMF) təqdim etdiyi “Sığortaolunanın onlayn uçota alınması”, “Sığortaolunanlara məlumatın verilməsi”, “Sığortaedənin uçot nömrəsinin öyrənilməsi” xidmətləri ilə yanaşı, 17 elektron xidməti aktual istifadə olunanlar sırasındadır. Xidmətlərə 65131 dəfə müraciət olunub. Ən çox müraciət olunan qurumlar sırasında 4-cü mövqedə dayanan Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin (ƏMDK) 39 xidməti üzrə 7188 dəfə istifadə qeydə alınıb.

Beşinci yerdə Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya (DQMK) qərar tutur. Komissiyanın 6 xidmətindən 5774 dəfə istifadə edilib [6] .

ƏDƏBİYYAT:

[1] “Azərbaycan 2020: Gələcəyə baxiş” İnkişaf konsepsiyası
[2] Hacırəhimova M.Ş. Elektron dövlət mühitində sənəd dövriyyəsi sistemlərinin aktual problemləri və həll yolları, İnformasiya cəmiyyəti problemləri, №2, 2010
[3] www.president.az/articles
[4] www.sspf.gov.az
[5] www.msipp.gov.az/
[6] www/mincom/gov/az